# MÜNDƏRİCAT

GİRİŞ ... 3
Ümumi görünüş ... 4
Enerji təminatı ... 4
İşə salınma ... 5
Klaviatura ... 6
Displey ... 8
Əsas menyu ... 8
LÜĞƏT ... 9
ƏLAVƏ LÜĞƏTLƏR ... 12
İstifadəçinin lüğəti ... 12
Hərbi lüğət ... 13
QRAMMATİKA ... 14
DANIŞIQ KİTABI ... 14
QAYDASIZ FELLƏR ... 14
MƏŞHUR İDİOMLAR ... 15
TELEFONLAR ... 15
CƏDVƏL ... 16
KALKULYATOR ... 18
ÖLÇÜ VAHİDLƏRİNİN KONVERSİYASI ... 18
VALYUTA KONVERSİYASI ... 18
DAR AĞACI LİNQVİSTİK OYUNU ... 19
QURŞAQ VAXTI ... 19
YERLİ VAXT ... 20
PK ILƏ ƏLAQƏ ... 20
TƏYİNLƏR ... 22
İnterfeys dili ... 22
Sürətli axtarış ... 22
Jarqon sözlərinin blokirovkası ... 22
Rus klaviatura sxemi ... 23
Klaviş tonu ... 23
Saat ... 23
Tarix formatı ... 24
Vaxt formatı ... 24
Cədvəl siqnalı ... 24

Zəngli saat ........ 24
Yaddaşın yoxlanılması ........ 24
Məlumatın silinməsi ........ 24
Parolu təyin edin ........ 25
Məlumatların qorunma rejimi ........ 25
Kontrast səviyyəsini təyin etmək ........ 26
Nitq seçimləri ........ 26
Söndürülməyə qalan vaxt ........ 26

# GİRİŞ

Sizi Partner® AzER430T əldə etdiyiniz münasibətilə təbrik edirik! Bu vəsait Ectaco-nun dilçiləri, mühəndisləri, proqramçılarının birgə səyinin nəticəsi olaraq ən yüksək səviyyədə həyata keçirilən mümkün tədris vasitələrinin son nəslidir.

Partner® AzER430T-nun xüsusiyyətləri:

- *Tibb, texniki, hüquqi, biznes və 12 000-dən artıq neft terminlərinin, həmçinin jarqon, idiom və əsas ifadələrin daxil olduğu təxminən 650 000 sözdən ibarət (İngiliscə-Azərbaycanca, İngiliscə-Rusca, Azərbaycanca-Rusca ikiistiqamətli lüğətlər) əsas lüğət.*
- *İngiliscə-Azərbaycanca-Rusca hərbi lüğət*
- *Elektron İngilis qrammatikası kitabı*
- *Ən məşhur seçilmiş Amerika idiomları*
- *Qaydasız İngilis felləri*
- *Ümumişlək ingilis cümlələrinin 12-mövzulu kitab*
- *Təkmilləşmiş ingilis və rus nitq reproduksiyası*
- *Yeni sözlər üçün yazma funksiyası*
- *Dərhal geriyə tərcümə*
- *Mükafat qazanmış Vector Ultima™ üçdilli orfoqrafiya sistemi*
- *Cədvəl və telefon nömrələri üçün axtarış funksiyası ilə təmin edilmiş 128 К İngiliscə/Azərbaycanca/Rusca şəxsi orqanayzer*
- *Ölçü vahidi və valyuta konversiyası*
- *Yerli və Qurşaq üzrə vaxt*
- *PK ilə yüksək sürətli məlumat mübadiləsi*
- *Üçdilli interfeys*
- *Rus dilində standart və fonetik klaviatura sxemi*
- *Məlumatların qoruması sistemi*
- *Jarqon blokirovkası*
- *AC əməliyyatı üçün xarici enerji yuvası*

✓ *Partner® istehsalçısının məhsullarının yüksək keyfiyyətini və icrasını təmin etmək üçün davamlı səylərinin nəticəsində sizin əldə etdiyiniz cihazın bəzi xüsusiyyətləri bu təlimatda göstərilənlərdən bir az fərqlənə bilər.*

# *Ümumi görünüş*

AzER430T-nin əsas görünüşü və xarici xüsusiyyətləri aşağıda göstərilmişdir.




# *Enerji təminatı*

AzER430T-nun enerji mənbəyi AAA (LRO3) batareyalarıdır. Batareyalar zəifləyəndə ekranda xəbərdarlıq məlumatı görünəcək. Batareyaların tam boşalmasının və bunun nəticəsində RAM-da məlumatların itməsinin qarşısını almaq üçün batareya zəifləyən zaman Demək funksiyası işləməyəcək. Cihazın bütün funksiyasıyalarını bərpa etmək və istifadəçi məlumatlarının itkisinin

qarşısını almaq üçün batareyaların tam komplektini mümkün qədər tez dəyişin. Köhnə və təzə batareyaları qarışdırmayın.

✓ Əgər siz AC adapterini qoşursunuzsa, cihazın tam fəaliyyəti 1 dəqiqə ərzində bərpa olunur.

*Batareyaların dəyişdirilməsi*

- Cihazın enerji mənbəyindən ayrıldığına əmin olun. YAND./SÖND. düyməsini basmaqla cihazı söndürün.

✓ Heç zaman cihaz şəbəkədə olarkən batareyaları çıxarmağa çalışmayın. Bu cihaza ciddi zərər vura bilər. Əgər cihazı söndürməkdə çətinlik çəkirsinizsə, klaviaturanın sağ tərəfindəki RESET düyməsini (O düyməsindən yuxarıda) basın və sistemi yenidən işə salın.

- Batareya yerinin örtüyünü cihazdan sürüşdürməklə batareya yerini açın.
- İstifadə olunmuş batareyaları çıxarın və onları yeniləri ilə əvəz edin.

✓ RAM-da saxlanılan məlumatların itkisi təhlükəsi olmadan köhnə batareyaları yeniləri ilə əvəz etmək üçün sizin 2 dəqiqə vaxtınız var. **2-dəqiqəlik zaman həddini keçməyin!** İstifadəçi məlumatının itkisinə görə nə istehsalçı, nə də satıcı cavabdehlik daşıya bilməz.

- Batareyaları batareya yerinə qütb nişanlarına (-+) uyğun olaraq yerləşdirin.
- Batareya yerinin örtüyünü onu cihaza tərəf sürüşdürməklə örtün. Örtüyün lazımi qaydada yerində oturduğuna əmin olun.

✓ AzER430T xarici güc təminatı üçün yuva ilə təchiz olunub.

✓ **Uyğun olmayan xarici güc təminatının istifadəsi cihazın korlanmasına və təminatın qüvvədən düşməsinə gətirib çıxara bilər.** AC/DC adaptoru 6V və min 300mA DC təmin edir.

✓ PK ilə rabitə xeyli miqdarda güc tələb edir. Belə əməliyyatlar zamanı həmişə xarici enerji təminatından istifadə etməyə çalışın.

## *İşə salınma*

İşə salınma əməliyyatı başlanır

- AzER430T ilk dəfə yandırılanda;
- batareyaları çıxaranda (məsələn, onları dəyişən zaman);
- sistem RESET düyməsi ilə işə düşəndən sonra.

- ✓ RESET düyməsi klaviaturanın sağ tərəfində (0 düyməsindən yuxarıda) yerləşir. O, hər hansı bir nazik cisimlə, məsələn, kağız zolağı ilə işə salına bilər. Bu məqsədlə iynə və ya sancaqdan istifadə etməyin, çünki bu, cihazı zədələyə bilər.
- Əgər siz *Sistemi işə salmaq? (y/n)* görsəniz, işə salınmanı və uyğunlaşdırmanı ləğv etmək üçün N düyməsini basın.
- Sonra siz *İstifadəçinin məlumatlarını silmək?(y/n)* sualını görəcəksiniz. Öz məlumatlarınızı qorumaq üçün N düyməsini basın.

*System initialized!* xəbəri bildirir ki, sistemin işə düşməsi bitib və fabrikin müəyyən etdiyi nümunə tərtibatı bərpa olunub.

## Klaviatura

Standart Amerikan QWERTY klaviaturası Azəri və Rus standart nizamlama qaydaları ilə birləşib.
Düymələrin yuxarı sol küncündə işarələnmiş hərfləri daxil etmək üçün ALT+ istənilən düyməni basmaq lazımdır.[1]
Bu hərfləri böyük yazmaq üçün SHIFT+ALT+ istənilən hərfi basmaq lazımdır.
AzER430T xüsusiyyətləri Rus hərflərini standart və fonetik üsulları ilə daxil etməyə imkan verir:
*Rus standart üsulunu istifadə edərkən* Rus hərfləri klaviatura nişanlarına uyğun olaraq daxil edilir.
*Rus fonetik üsulu* Rus hərflərini onların İngilis hərfləri ilə uyğunluğuna görə daxil etməyə imkan verir. Məsələn, siz F düyməsini “Ф” rus hərfini daxil etmək üçün basa bilərsiniz.
Aşağıdakı cədvəl rus və ingilis klaviatura sxemlərini rus fonetik qaydasında göstərir[2].

| **q** | **w** | **e** | **r** | **t** | **y** | **u** | **i** | **o** | **p** |
|---|---|---|---|---|---|---|---|---|---|
| я | ш/щ | е/э | р | т | ы | у/ю | и | о | п |
| **a** | **s** | **d** | **f** | **g** | **h** | **j** | **k** | **l** | |
| а | с | д | ф | г/ж | х | й | к | л | |

[1] Klaviş1+Klaviş2 indi və daha sonra istifadə olunacaq düymələrin kombinasiyasını bildirir – əvvəlcə Klaviş 1 düyməsini basın və buraxın, sonra Klaviş 2 düyməsini basın və buraxın.
[2] Cədvəldə xətt (/) işarəsindən sonra görünən hərfləri daxil etmək üçün ALT klavişini basın.

| z | x | c | v | | b | n | m |
|---|---|---|---|---|---|---|---|
| з | ь/ъ | ц/ч | в | | б | н | м |

✓ PK klaviaturasından fərqli olaraq düyməni başqa düyməni basan müddətdə saxlamağa (SHIFT kimi) ehtiyac yoxdur . Onu bir dəfə basıb-buraxmaq kifayətdir.

Milli hərflərin mümkün sırası daxilolma dilinin seçimindən asılıdır. Dil qaydaları ⇔ düyməsini basmaqla dəyişdirilir. ENG, AZ, və ya RUS uyğun olaraq yuxarı sağ küncdə göstərilir.

**Funksional birbaşa klavişlər**

| | |
|---|---|
| ON/OFF Yand./Sönd. | Cihazı yandırma və ya söndürmə |
| RESET | Yenidən işə salınma sistemi |
| ORFOQRAFİYA (SHIFT+ ▼ və ya ▲) | Orfoqrafiyanı yoxlamağa başlamaq |

Digər birbaşa klavişlər düymələrin üstündəki işarələrə uyğun bölmələri açır. (SHIFT+ birbaşa klavişi basın; məsələn, SHIFT+DICT).

**Yoxlama və redaktə klavişləri**

| | |
|---|---|
| ←, → | Kursoru hərəkətə gətirmək/ işıqlandırmaq/ əsas menyuya keçmək |
| ↓, ↑ | İşıqlandırmaq/ sətirdən sətrə keçmək / əsas menyuya keçmək / ekvivalentləri dəyişmək. Daxil etmə və ya Təzədən yazma rejimlərini seçmək üçün ↑ klavişindən istifadə edin. |
| ▼, ▲ | Səhifədən səhifəyə keçmək |
| ENTER | Yerinə yetirmək |
| ␣ | İnterval daxil etmək |
| ESC | Aktiv pəncərəni bağlamaq / ləğv etmək / əvvəlki səhifəyə qayıtmaq |
| ALT | Klavişlərin altında göstərilən simvolları daxil etmək |
| SHIFT | Böyük hərflərlə yazmaq |
| ←BS | Kursorun sol tərəfindəki hərfi pozmaq |
| ⇔ | Tərcümə istiqamətini çevirmək |

| | |
|---|---|
| SHIFT+🡅 | Əlavə simvolları[3] açmaq |
| SHIFT+🡇 | Yazını redaktə üçün açmaq |
| SHIFT+BS | Yazını pozmaq |
| 🔈 | İngilis və ya rus dilində əsas sözün tələffüzü |
| SHIFT+🔈 | İngilis və ya rus dilində tərcümənin tələffüzü |
| A, P | AM və ya PM rejimini təyin etmək (12-saatlıq format müəyyən edildiyi halda) |

## *Displey*

Partner® AzER430T yüksək göstəricili ekrana (160x64 piksellər) malikdir.
İndikator xətti displeyin yuxarısında yerləşir və aşağıdakı indikatorları göstərir:

| | |
|---|---|
| EDIT | Redaktə rejimində açılmış cari yazı |
| SHIFT | SHIFT klavişi basılmışdır |
| INS | Daxil etmə rejimi seçilmişdir |
| 🔋 | Batareya enerjisi bitmişdir |
| 🔑 | Cihaz blokirovka olunmuşdur |
| 🔔 | Zəngli saat qurulmuşdur |
| ▼▲ | Şaquli çevirmə və ya səhifələmə mümkündür (mətnin ardı var) |
| ◄► | Üfüqi çevirmə mümkündür |

## *Əsas menyu*

AzER430T-nun ƏSAS MENYUSU lüğətin hissələrinə daxil olmaq üçün vizual şərait yaradan 16 funksional təsvirdən ibarətdir.

- ƏSAS MENYUnun ekrana gəlməsi üçün cihazı işə salın və ya cari hissəni bağlayın.
- Təsvirlər arasında hərəkət etmək üçün 🡇,🡅 və ya 🡄,🡆 klavişlərindən istifadə edin.
- Təsviri verilmiş hissəni açmaq üçün ENTER klavişini basın.

---

[3] Simvolların üç sırası arasında hərəkət etmək üçün ▼, ▲-nu basın. İstənilən simvolu daxil etmək üçün uyğun nömrə düyməsini basın.

ƏSAS MENYUda göstərilən təsvirlər aşağıdakı bölmələri təqdim edir:

| | |
|---|---|
| Lüğət | Kalkulyator |
| Əlavə lüğətlər | Metrik Konversiya |
| Qrammatika | Valyuta Konversiyası |
| Danışıq Kitabı | Dar ağacı linqvistik oyunu |
| Qaydasız fellər | Qurşaq üzrə vaxt |
| Geniş yayılmış idiomlar | Yerli vaxt |
| Telefonlar | PK ilə əlaqə |
| Cədvəl | Təyinlər |

# LÜĞƏT

Lüğət hissəsi İngiliscə⇔Azərbaycanca, İngiliscə⇔Rusca və Azərbaycanca⇔Rusca ikiistiqamətli lüğətlərdən ibarətdir.

- Lüğət hissəsinə daxil olmaq üçün SHIFT+DICT düymələrini basın.

✓ Sistemin işə salınmasından sonra, avtomatik olaraq İngiliscə-Azərbaycanca lüğəti seçilir.

*Daxil etmələrə baxmaq*

- Sözün tərcüməsinə baxmaq üçün onu klaviaturadan daxil edin.




- Əgər *Sürətli Axtarış* rejimi *YAND*ırılıbsa (ON), siz lazımi sözün hissəsini daxil etdikdə, bu hissəyə orfoqrafik cəhətdən yaxın olan söz daxil etmə xəttindən aşağıda göstəriləcək. İstənilən söz göstərilən zaman tərcüməni görmək üçün ENTER düyməsini basın.

✓ Əgər Sürətli Axtarış rejimi SÖNDürülübsə (OFF), sizin Lüğət daha sürətlə işləyəcək. (səh. 22 bax).

```
dictionary
[A]
lüğət;
[N]
lüğət
```

İstifadə etməli:

- 🡻,🡹 tərcümələrin daxilində hərəkət etmək üçün
- ▲, ▼ qonşu sətirlər arasında hərəkət etmək üçün

- ESC klavişini və ya hər hansı bir hərf düyməsini basmaqla daxil etmə xəttinə qayıdın və həmin lüğətdə başqa sözü tərcümə edin.

Siz tərcümənin istiqamətini ⇔ klavişini basmaqla dəyişə bilərsiniz.

- İngilis, Azəri və Rus lüğətlərinə keçmək üçün ALT+DICT "isti" klavişini basın.

*Nitq hissələri və Cins göstəriciləri*

Əsas sözlərin tərcümələri nitq hissələrinə görə əlifba sırasında verilib.

| | | |
|---|---|---|
| A – sifət | ID – idiom | PHR – cümlə |
| ABBR – abbreviatura | INTRJ – nida | PREF – prefiks |
| ADV – zərf | N – isim | PREP – önlük |
| ART – artikl | NPR – xüsusi isim | PRON – sifət |
| AUX – köməkçi fel | NUM – say | SUFF – suffiks |
| CONJ – bağlayıcı | PART – hissəcik | V – fel |

Rus felləri cins və say göstəriciləri ilə işarələnib.

| | |
|---|---|
| F – qadın | MN – kişi və ya orta |
| FN – qadın və ya orta | MPL – kişi cəm |
| FPL – qadın cəm | N – orta |
| M – kişi | NPL – orta cəm |
| MF – kişi və ya qadın | PL – cəm |
| MFPL – kişi və ya qadın cəm | |

*Dərhal geriyə tərcümə*

Sizin rahatlığınız üçün AzER430T Lüğətdəki bütün sözlər və ifadələr üçün *Dərhal Geriyə Tərcüməni* təmin edir.

- Geriyə tərcümə etmək istədiyiniz üçün söz və ifadəni seçmək üçün 🡸, 🡺 düyməsini basın.




- Dərhal geriyə tərcüməni almaq üçün ENTER düyməsini basın.

Siz ardıcıl olaraq dördə qədər geriyə tərcüməni yerinə yetirə(pəncərələri bağlamadan) bilərsiniz. Norma dolubsa *Son tərcümə* xəbəri ekrana gələcək.

İstifadə etməli:

- *Geriyə tərcümə* pəncərələrini bağlamaq üçün ESC klavişindən[4]
- Daxil etmə xəttinə qayıtmaq üçün hər hansı bir hərf düyməsindən .

### *Orfoqrafiyanı yoxlayan Vector Ultima™*

Əgər siz sözün düzgün yazılışına əmin deyilsinizsə, orfoqrafiyanı yoxlayan çoxdilli Vector Ultima™ sizə kömək edər.

- Sözü eşitdiyiniz kimi çap edin. Məsələn, “fall” əvəzinə “foll”.
- SHIFT+SPELLER basın (SHIFT və ▲, ▼ düymələrindən birini). Təklif olunmuş variantlar siyahısı ekranda görünür.
- İstənilən sözü seçin və ENTER klavişini basın.

✓ Əgər orfoqrafiya alternativ sözlər təklif edə bilmirsə, onda *Heç bir variant yoxdur* xəbəri görünür.

### *Sözlərin və cümlələrin tələffüzü*

Nitq üçün Mətn texnologiyası hər hansı ingilis və rus sözlərinin və cümlələrinin tələffüzünü təmin edir.

- Daxil etməni göstərmək.

İstifadə etməli:

- 🔈 əsas sözlərin tələffüzünü dinləmək üçün
- SHIFT+🔈 ekranda olan bütün tərcümələrin tələffüzünü dinləmək üçün.

[4] Pəncərələr sonuncudan başlamaqşərti ilə ardıcıllıqla bağlanacaq.

- Siz həmçinin daxil etmədə sadalanan hər hansı bir seçilmiş sözü və ya ifadəni dinləyə bilərsiniz. Sadəcə olaraq 🡐, 🡒 -dan istifadə etməklə seçiminizi edin və 🔈 düyməsini basın.

✓ Bu cihaz lüğət daxil etmələrindən başqa istənilən mətnin tələffüzünü həyata keçirir. Bunun üçün sadəcə  sözü və ya ifadəni uyğun lüğətin daxil etmə xəttinə yazın və onun tələffüzünə qulaq asmaq üçün 🔈 düyməsini basın.

# ƏLAVƏ LÜĞƏTLƏR

## *İstifadəçinin lüğəti*

AzER430T sizə öz şəxsi lüğətinizi yaratmağa imkan verir.

- *İstifadəçinin lüğəti* yarımbölməsinə daxil olun və istifadəçinin lüğətlərindən birini – İngilis, Azəri və ya Rus lüğətini seçin.

*Yazı*

Yazı söz və ya ifadədən, onun tərcüməsindən və onun nitq hissəsindən ibarətdir. O, həmçinin cari yazının indeks nömrəsi və yazıların ümumi sayı  haqqında məlumat verir .




*Yazı yaratmaq*

- Yazı siyahısında olarkən yeni yazı şablonu yaratmaq üçün ENTER düyməsini basın.

✓ Əgər lüğət boşdursa, yeni yazı şablonu avtomatik olaraq yaranır.

- Sözü və ya ifadəni daxil edin. ENTER düyməsini basın.




- Tərcüməni(ləri) daxil edin. Hədəf dilini təyin etmək üçün ⇔ klavişindən istifadə edin.

```
Azərbaycanca söz:   AZ
dəlalət etmək
```

- Yenidən ENTER düyməsini basın.
- Uyğun nitq hissəsinin abbreviaturasını ↓, ↑ klavişlərindən istifadə edərək seçin. ENTER klavişini basın.

```
Nitq hissəsi:
V
A
PREP
INTRJ
```

Yazı qorunacaq və siz yazıların siyahısına qayıdacaqsınız.

*Yazını tapmaq*

Yazını tapmağın üç yolu var:

I. Yazı siyahısında olan zaman siz qorunmuş yazının əsas sözlərini yazmağa başlaya bilərsiniz. Daxil olunmuş sözü ləğv etmək üçün Backspace düyməsindən istifadə edin.

II. Yazılar əsas sözə görə əlifba sırası ilə növləşdirilib. Siz yazı siyahısında ▼ və ya ▲ klavişlərindən istifadə etməklə sətirdən-sətrə keçə bilərsiniz.

III. Əsas lüğəti açın, müvafiq tərcümə istiqamətini müəyyənləşdirin, istifadəçinin lüğətində saxlanılan sözləri daxil edin və ENTER düyməsini basın.

✓ *Məlumatların Qorunma Rejimi* YANDırılıbsa (ON) istifadəçinin lüğətindəki sözlər Əsas Lüğətdə göstərilmir.

## *Hərbi lüğət*

Bu lüğət eskadron komandirləri, sorğu və məlumat mütəxəssisləri, hərbi tədqiqatçılar və digər hərbi peşəkarlar üçün çox faydalıdır. O, müdafiə fəaliyyətinin müxtəlif sahələrinə: minasızlaşdırma, hava və dəniz müdafiəsinə, dənizçilik fəaliyyətinə aid əlavə 26,000 hərbi sahədə işlənən söz və ifadələrdən ibarətdir.

- Əlavə Lüğətlər bölməsinə daxil olun.
- *Hərbi Lüğət* təsvirini seçin.

Hərbi Lüğətdən istifadə qaydası Əsas Lüğətdən istifadə qaydası ilə eynidir (9 səhifəyə bax).

# QRAMMATİKA

AzER430T-ya Rus dilində İngilis Qrammatikası daxildir.

- *Qrammatika* hissəsinə daxil olmaq üçün SHIFT+GRAM klavişlərini basın.

*Qrammatika* üç-səviyyəli iyerarxik menyudan ibarətdir. Siz menyunun üçüncü səviyyəsinə mövzuları menyudan ardıcıl olaraq seçməklə çata bilərsiniz.

# DANIŞIQ KİTABI

Danışıq kitabı 12 danışıq mövzusuna bölünmüş1,100 İngilis cümlələrindən və onların tərcümələrindən ibarətdir:

| | | |
|---|---|---|
| Gündəlik cümlələr | Alış-veriş | Nəqliyyat |
| Səyahət | Ekskursiya | Sağlamlıq |
| Mehmanxana | Rabitə vasitələri | Gözəllik salonu |
| Restoranda | Bankda | Polisin çağırışı |

Mövzuların çoxu bir neçə yarımmövzudan ibarətdir.

- SHIFT+PHRASES klavişini basmaqla *Danışıq Kitabı* hissəsinə daxil olun.




- Mövzunu seçin. Onun yarımmövzularına daxil olmaq üçün ENTER düyməsini basın.
- Azəri və ya Rus tərcümələrindən birini seçmək üçün ⇔ -nı basın.

# QAYDASIZ FELLƏR

Bütün geniş istifadə olunan İngilis dilinin qaydasız felləri Qaydasız *Fellər* hissəsində əlifba sırası ilə saxlanılır.

- Qaydasız *fellər* hissəsinə daxil olmaq üçün SHIFT+VERBS basın.
- İstənilən felin birinci hərfini yazın və onu siyahıda tapın.

**take; took; taken**
götürmək; almaq

- Azəri və Rus tərcümələrindən birini seçmək üçün ⇔-nı basın.

# MƏŞHUR İDİOMLAR

Məşhur *İdiomlar* bölməsində 200-dən çox geniş istifadə olunan idiomlar, onların ekvivalentləri və tərcümələri vardır.

- SHIFT+IDIOMS basmaqla Məşhur İidiomlar bölməsinə daxil olun.
- İstənilən idiomun birinci hərfini yazın və onu siyahıda tapın.

**take advantage of**
səmərəli istifadə etmək

- Azəri və Rus tərcümələrindən birini seçmək üçün ⇔-nı basın.

# TELEFONLAR

Bu bölmədə siz adları, telefon və faks nömrələrini, həmçinin poçt və elektron poçtu ünvanlarını İngilis, Azəri, Rus dillərində saxlaya bilərsiniz.

- Telefon bölməsinə daxil olmaq üçün SHIFT+PHONES basın.

Siz mövcud telefon yazılarının ada görə növləşdirilmiş siyahısını görəcəksiniz.

**Ad:**
Smith John
**Telefon:**
+1-9998-999889999
8/9

### *Yazı Yaratmaq*

- Yeni yazı nümunəsi açmaq üçün yazı siyahısında olarkən ENTER basın. Əgər heç bir yazı saxlanılmayıbsa, siyahıya daxil olan zaman yeni yazı nümunəsi avtomatik olaraq açılıcaq.
- *Ad* səhifəsini doldurmağa başlayın.

✓ Əgər siz Azəri və ya Rus dilində yazmağa başlamısınızsa, sonrakı daxilolmalar üçün uyğun olaraq Azəri / İngilis və ya Rus / İngilis klaviatura sxemləri qüvvədə olur.

- Növbəti səhifəni açmaq üçün ENTER klavişini basın.

✓ Sonrakı səhifələrə keçmək üçün *Ad* səhifəsini tamamlamaq lazımdır.

*Yazının Tapılması*

Yazını tapmaq üçün iki yol var:

I. Yazı siyahısında olarkən siz qorunan yazıda olan adı yazmağa başlaya bilərsiniz.

İstifadə etməli:

- BS daxil olmuş sözü ləğv etmək üçün
- ⇔ İngilis, Azəri, Rus daxilolma qaydaları arasında hərəkət etmək üçün.

II. Yazılar ada görə əlifba sırası ilə növləşdirilib. Siz yazı siyahısında ▼ və ya ▲ istifadə etməklə hərəkət edə bilərsiniz.

# CƏDVƏL

Siz *Cədvəl* bölməsindən istifadə etməklə öz vaxtınızdan səmərəli istifadə edə bilərsiniz.

- SHIFT+SCHEDULE basmaqla Cədvəl bölməsinə daxil olun. Mövcud yazılardan birincisi görünəcək.

Yazılar tarixə və vaxta görə növləşdirilib.




✓ Yuxarı sağ küncdəki ☑ işarəsi hadisənin keçmişdə olduğunu bildirir.

*Yazı Yaratmaq*

- Yazı siyahısında olarkən yeni yazı nümunəsini açmaq üçün ENTER klavişini basın. Əgər heç bir yazı qorunmayıbsa, yazı siyahısına daxil olan zaman avtomatik olaraq yeni yazı nümunəsi açılacaq.




Yazının birinci səhifəsində *Tarix, Vaxt* və eşidilən *Xatırlatma* var. *Tarix* və *Vaxt Cədvəl* siqnalının işə düşməsi anını müəyyənləşdirir. *Xatırlatma Cədvəl* siqnalının işə düşməsindən əvvəlki vaxt müddətini müəyyənləşdirir.
İkinci səhifədə – *Məzmun* – hadisə haqqında informasiya yerləşir.

- Tarix və vaxtı qurun və *Cədvəl siqnalı* işə düşmədən əvvəlki vaxt müddətini müəyyənləşdirin.
- ENTER klavişini basaraq *Mündəricat* səhifəsini açın və onu doldurun.

✓ Əgər siz Azəri və ya Rus dilində yazmağa başlamısınızsa, sonrakı daxilolmalar üçün uyğun olaraq Azəri / İngilis və ya Rus / İngilis klaviatura sxemi qüvvədə olur.

- Yazını yaddaşda saxlamaq üçün ENTER klavişini basın.

✓ *Cədvəl* yaddaşı 50 yazı ilə məhdudlaşır. Yazı siyahısı dolu olduqda *Yaddaş kifayət deyil* xəbəri ekrana gəlir.

### *Yazını Tapmaq*

Yazılar tarixə və vaxta görə növləşdirilib. Yazı siyahısında hərəkət etmək üçün ▼, ▲ -dan istifadə edin.

### *Xatırlatma və Cədvəl siqnalı*

Təyin olunubsa, *Xatırlatma Cədvəl siqnalı* işə düşmədən əvvəl müəyyən olunmuş vaxtda eşidilən siqnal verərək səslənir. *Xatırlatma* şablona görə yeni yazı üçün SÖNDürülür(OFF). Xatırlatma vaxtı hər bir fərdi yazı üçün ayrıca nizamlanır.

✓ *Xatırlatmalar və Cədvəl siqnalları* hətta cihaz SÖNDürüldükdə (OFF) səslənir.

✓ Əgər *Xatırlatma* və *Zəngli saat* eyni vaxta qurulubsa, *Xatırlatma* daha yüksək üstünlüyə malik olduğu üçün ekranda yalnız o, görünür.

Müvafiq *Cədvəl* yazısı həmin vaxt ekranda göstəriləcək.

- *Cədvəl* və ya *Xatırlatma* siqnalını söndürmək üçün hər hansı bir klavişi basın.

Siz yazını dəyişdirə və *Xatırlatmanı* sonrakı vaxta qura bilərsiniz. *Cədvəl xatırlatması* pəncərəsini bağlamaqla siz siqnaldan əvvəl açılmış bölməyə (məsələn, *Lüğət*) qayıdacaqsınız.

# KALKULYATOR

- *Kalkulyator* bölməsinə daxil olmaq üçün SHIFT+CALC klavişlərini basın.

*Kalkulyator* rejimində olduğunuz zaman, rəqəmləri və əməliyyatları klaviaturadan daxil edərkən SHIFT klavişini basmaq lazım deyil. Bu əlavədən adi cib kalkulyatoru kimi istifadə edin.

# ÖLÇÜ VAHİDLƏRİNİN KONVERSİYASI

AzER430T ilə siz asanlıqla ölçüləri Britaniya-Amerika sistemindən Avropada geniş istifadə olunan metrik sisteminə və əksinə, həmçinin hər sistemin daxilində konversiya edə bilərsiniz.

- *Ölçü vahidlərinin Konversiyası* bölməsinə daxil olun
- ↓,↑ basmaqla yarımbölməni seçin. ENTER klavişini basın.
- Ölçünü daxil edin.

✓ Yarımbölmədə dörddən çox ölçü vahidi ola bilər.

# VALYUTA KONVERSİYASI

*Valyuta Konversiyası* funksiyası sizə əvvəlcədən qurulmuş doqquz valyuta və istifadəçinin müəyyən etdiyi üç valyuta arasında konversiyanı dərhal hesablamaq imkanı verir.

- *Valyuta Konversiyası* bölməsinə daxil olun.

### *Məzənnələrin təyin edilməsi və yoxlanması*

- Valyuta adlarını və məzənnələrini müəyyən etmək üçün *Məzənnəni təyin edin* yarımbölməsini seçin.
- Valyutanı seçin. ENTER klavişini basın.

✓ Siz siyahıda olan hər hansı bir valyutanın adını müəyyənləşdirə və ya dəyişdirə bilərsiniz. Yeni valyutalar ??? yerinə əlavə edilə bilər.

- Valyutanın adını dəyişdirin və ya müəyyən edin. Növbəti pəncərəni açmaq üçün ENTER klavişini basın.
- Əsas valyutaya nisbətdə dəyişmə məzənnəsini müəyyənləşdirin. (bu məzənnə 1-ə bərabər olmalıdır)

✓ Bütün valyutalar üçün dəyişmə məzənnə nümunəsi 1-dir.

- Dəyişiklikləri qorumaq üçün ENTER klavişini basın.

*Konversiya*

- *Hesablama* yarımbölməsinə daxil olun.
- Valyutanın adını seçin və miqdarı daxil edin.

Siz yeni miqdarı yazarkən konversiya yerinə yetirilir.

## DAR AĞACI LİNQVİSTİK OYUNU

AzER430T-a sizin oxuma qabiliyyətinizi artıracaq və şəxsi lüğətinizi genişləndirəcək Dar ağacı tədris oyunu daxildir.

- *Dar ağacı* bölməsinə daxil olmaq üçün SHIFT+GAME basın.
- Oyun üçün dil seçin. ENTER klavişini basın.
- ⇔ -nu basmaqla hədəf dili seçin.

Dil seçiləndən sonra yeni oyun başlanacaq.

- Sözün tərkibində olan hərfləri klaviaturadan daxil etməklə tapmağa çalışın.

Əgər siz hərfi düzgün tapmısınızsa, o, sözdə ulduzun yerində peyda olacaq. Ekrandakı rəqəm daha neçə cəhdin qaldığını göstərir.

- Oyun zamanı gizlənmiş sözün tərcüməsini ekrana gətirmək üçün ENTER klavişini basın (bu bir cəhd kimi hesab olunur) . Tərcüməni gizlətmək üçün ESC klavişini basın.
- Gizlənmiş İngilis və ya Rus sözünü eşitmək üçün 🔈 düyməsini basın ( bu bir cəhd kimi hesab olunur).
- Oyun bitdikdən sonra gizlənmiş söz və onun tərcüməsi (və ya tərcümələri) görünəcək.
- Yeni oyuna qayıtmaq üçün ESC klavişini basın.

## QURŞAQ VAXTI

*Qurşaq vaxtı* bölməsindən istifadə etməklə siz dünyanın bütün şəhərlərində cari vaxtı nəzərdən keçirə bilərsiniz.

- Qurşaq vaxtı bölməsinə daxil olun.

**Qurşaq üzrə vaxt**
Nyu-York
ABŞ
2003/01/12, Ba.
04:52:50

*Qurşaq vaxtı* ekranı seçilmiş şəhərin və ölkənin adını, tarixi, həftənin gününü və bu şəhərdə (nümunə üçün: Nyu-York, ABŞ) cari vaxtı göstərir.

- Başqa bir şəhər haqqında məlumatı görmək üçün əlifba siyahısında ↓,↑-dan istifadə etməklə hərəkət edin.
- Həmin ölkənin başqa şəhəri haqqında məlumatı görmək üçün əlifba siyahısında ▼, ▲ basmaqla hərəkət edin.
- Siz həmçinin istənilən şəhəri onun adının birinci hərfini basmaqla və siyahıda ↓,↑-dan istifadə edərək hərəkət etməklə tez tapa bilərsiniz.

- İstədiyiniz şəhəri tapdıqda dəyişiklikləri qorumaq üçün ENTER klavişini basın. Siz növbəti dəfə bu bölməyə daxil olduqda seçdiyiniz şəhər birinci olaraq ekrana gələcək.

# YERLİ VAXT

- *Yerli Vaxt* bölməsinə daxil olmaq üçün SHIFT+TIME basın.

*Yerli Vaxt* ekranı seçilmiş şəhərin və ölkənin adlarını (məsələn: Bakı, Azərbaycan), tarixi, həftənin gününü və o şəhərdə cari vaxtı göstərir. Siz bu şərtləri *Təyinlər* bölməsində müəyyən edə bilərsiniz.

# PK ILƏ ƏLAQƏ

AzER430T *PC-Link* kabelindən (ayrıca Rabitə Paketinin tərkibinə daxil olan) və *PC-Link* proqramından (standart paketin tərkibinə daxil olan CD-nin üzərində) istifadə etməklə siz öz AzER430T-nunuzla personal kompüter arasında məlumat mübadiləsi edə bilərsiniz. Bu xüsusiyyət sizə *Telefonlar*, *Cədvəl* və *İstifadəçi Lüğətləri* məlumatlarının surətlərini öz PK – nızda saxlamağa imkan verəcək.

*Proqram*

- Verilmiş CD-ni PC-nın CD-ROM drayverinə qoyun. Əgər quraşdırma proqramı avtomatik olaraq başlanmırsa, CD-nin əsas kataloqundan INSTALL.exe faylını işə salın.
- PK ekranındakı menyudan *AzER430T PC-Link* – i seçin.
- Proqram quraşdırılandan sonra onu Start/Programs/Ectaco-dan başlayın. Sistem Qutusunda təsviri yaranacaq.

✓ *PC-Link* proqramının son versiyası və əlavə lüğətlər Ectaco-nun İnternet saytından - www.ectaco.com-dan yüklənə bilər.

*Göndərmə və qəbul etmə*

- *PC-Link* kabelini cihazın sağ küncündə yerləşən *PC-Link* yuvasına birləşdirin.
- *PC-Link* bölməsinə daxil olmaq üçün SHIFT+PC-LINK basın.
- Sistem Qutusunda *PC-Link* təsvirini Sağ düyməylə basın. *PC-Link* proqramında müvafiq məlumat ötürmə rejimini seçin.

✓ Uyğun COM portun seçildiyinə əmin olun.

✓ *AzER430T PC-Link*-lə eyni zamanda heç bir *PC-Link* proqramının fəaliyyətdə olmadığına əmin olun.

- *Məlumatı Göndərmək* ötürmə rejimini seçin. ENTER klavişini basın.
- Göndərmək istədiyiniz bölməni (bölmələri) seçin. Bölməni seçmək və ya seçimi ləğv etmək üçün SPACE-dən istifadə edin.




- Ötürülməni başlamaq üçün ENTER klavişini basın.

✓ Məlumatın ötürülməsini əvvəlcə qəbul edən cihazda, sonra göndərən cihazda başlayın.

- Məlumatı qəbul etmək üçün *Məlumatların qəbulu* rejimini seçin. ENTER klavişini basın və ötürülmə başlanacaq.

✓ PK və cihaz arasında məlumat ötürülmələri arasında vaxt 30 saniyədənartıq olmamalıdır.

✓ Nəzərə alın ki, *Məlumatın qəbulu* rejimində yeni keçmiş məlumat sizin cihazın uyğun bölmələrində qorunan bütün

köhnə informasiyanı əvəz edəcək. Əgər göndərilən bölmələr boş olarsa, məlumatlar AzER430T-nin müvafiq bölmələrindən silinəcəkdir.

✓ **Həmişə öz vacib məlumatlarınızın surətini yaradın!** Nə istehsalçı, nə də satıcılar məlumatların itkisinə və ya korlanmasına görə məsuliyyət daşımır.

✓ Məlumatların ötürülməsi çox enerji gücü tələb edir. Xarici güc təminatı qəti sürətdə məsləhət görülür.

# TƏYİNLƏR

Öz AzER430T – nizi özünüz üçün uyğunlaşdırın və *Təyinlər* bölməsində seçimlərdən istifadə edərək öz şəxsi yazılarınızın rahat yerləşdiyinə əmin olun.

- Təyinlər bölməsinə daxil olmaq üçün SHIFT+SETUP basın.

*Təyinlər* bölməsi seçimlərinin çoxu asan nizamlanır. Başqa bir üsul təyin edilməyibsə, yarımbölməyə daxil olun və istənilən düyməni ↓,↑ vasitəsilə seçin. Öz seçiminizi təsdiq etmək üçün Enter klavişini basın.

## *İnterfeys dili*

AzER430T-nin nümunə üçün seçilmiş interfeys dili - İngilis dilidir. Siz interfeysin dilini İngilis, Azəri və Rus dillərində təyin edə bilərsiniz.

## *Sürətli axtarış*

Əgər *Sürətli Axtarış* rejimi *YAND*ırılıbsa (ON), siz lazımi sözün hissəsini daxil etdikdə, bu hissəyə orfoqrafik cəhətdən yaxın olan söz daxil etmə xəttindən aşağıda göstəriləcək. Siz öz lüğətinizin işini *Sürətli Axtarış* rejimini *SÖND*ürməklə (OFF) sürətləndirə bilərsiniz. *Sürətli Axtarış* nümunəyə görə *SÖND*ürülüb (OFF).

## *Jarqon sözlərinin blokirovkası*

Bu yarımbölmədə siz lüğətlərin tərkibində olan jarqon sözləri və cümlələri gizlədə bilərsiniz. Məsələn, siz öz uşaqlarınızın jarqon sözlərin baxmalarına qadağa qoya bilərsiniz.
*Jarqon sözlərinin blok.* nümunəyə görə *YAND*ırılıb (ON) . *Jarqon* blokirovkasını *SÖND*ürmək(OFF) üçün ***showslan*** parolunu daxil edin və ENTER klavişini basın.

## Rus klaviatura sxemi

Bu yarımbölmədə siz mümkün Rus klaviatura rejimlərindən birini: *Standart* və ya *Fonetik* rejimini seçə bilərsiniz.
*Rus standart rejimi* Rus hərflərini klaviatura nişanlarına uyğun olaraq daxil etməyə imkan verir.
*Rus fonetik rejimi* Rus hərflərini onların fonetik uyğunluğuna görə ingilis hərfləri ilə daxil etməyə imkan verir. Məsələn, siz "F" düyməsini rus "Ф" hərfini daxil etmək üçün basa bilərsiniz.

## Klaviş tonu

Bu xüsusiyyət cihazın klaviaturasının klavişlərini hər dəfə basan zaman qısa siqnal vermək üçün hazırlanıb. Klaviş tonu nümunəyə görə *YAND*ırılıb (ON).

## Saat

Bu yarımbölmədə siz *Yerli Vaxt* bölməsində göstəriləcək şəhəri seçə və cari vaxtı qura bilərsiniz.

✓ Yanvar 01, 2003, 00:00 (12:00 AM), və Bakı, Azərbaycan nümunə kimi yazılıb.

- *Saat* yarımbölməsinə daxil olun.




- Cari tarixi və vaxtı müəyyənləşdirin.
- Dəyişiklikləri qorumaq üçün ENTER klavişini basın.

Ekrana gələn növbəti bölmə sizə yerli şəhəri seçməyə imkan verəcək.




Bu ekran şəhər və ölkə adlarını və şəhərin GMT göstəricisini nümayiş etdirir.
20 səhifəyə müraciət etməklə istənilən ölkəni və ya şəhəri necə tapmağı öyrənin.

- İstədiyiniz şəhəri tapdıqda dəyişiklikləri yaddaşda saxlamaq üçün ENTER klavişini basın.

## Tarix formatı

Nümunə üçün verilmiş İl-Ay-Gün tarix formatı Gün-Ay-İl və ya Ay-Gün-İl formatları ilə əvəz oluna bilər.

## Vaxt formatı

Nümunə üçün verilmiş 24-saatlıq (Hərbi) vaxt formatı 12-saatlıq Amerika formatı ilə dəyişdirilə bilər.

## Cədvəl siqnalı

Bu yarımbölmədə siz *Cədvəl siqnalını* YANDıra və ya SÖNDürə (ON və ya OFF) bilərsiniz. Əgər nümunədə olduğu kimi yandırılıbsa *Cədvəl siqnalı Cədvəl* yazısındakı tarix və vaxtda eşidilən siqnal verməklə işə düşür.

## Zəngli saat

*Zəngli saat* yarımbölməsinə daxil olun.
✓ Nümunədə gecəyarısı, 00:00-dur və SÖNDürülüb. (OFF).
İstifadə edin:

- 🡐, 🡒 saatlar və dəqiqələr arasında keçid üçün
- A, P - AM və ya PM-i müəyyən etmək üçün.
- ▼, ▲ zəngli saatı *YANDırıb*/*SÖNDürmək* üçün (ON/OFF).

- Dəyişiklikləri yaddaşda saxlamaq üçün ENTER klavişini basın.

Əgər yandırılıbsa, *Zəngli saat* qurulduğu vaxtda siqnal verir

- *Zəngli saat* siqnalını kəsmək üçün hər hansı bir klavişi basın. (əks halda siqnal 30 saniyə davam edəcək).

## Yaddaşın yoxlanılması

Təyinlər düyməsi ilə sərbəst yaddaşı birbaşa yoxlayın.

- *Yaddaşın yoxlanılması* yarımbölməsinə daxil olmaqla qalan sərbəst yaddaşı yoxlayın.

## Məlumatın silinməsi

- *Məlumatın silinməsi* yarımbölməsi sizə yaddaş ehtiyatını yazıları silməklə boşaltmaq imkanı verir ki, bu da onları bir-bir silməkdən daha tez başa gəlir.

## *Parolu təyin edin*

Heç bir parol təyini olunmayıbsa (nümunədəki kimi), AzER430T-nun bütün funksiyalarına sərbəst giriş var. Parol təyin edildikdən sonra aşağıdakı bölmələr icazəsiz girişə qarşı blokirovka oluna bilər: *Telefonlar, Cədvəl, İstifadəçinin Lüğətləri, PK rabitə, Məlumatın ləğvi, Məlumatların qorunma rejimi, Parolun təyini.* Qapalı rejimdə bu bölmələrin hər birinə daxil olmaq üçün düzgün parol daxil edilməlidir.

- *Parolu müəyyən edin* yarımbölməsinə daxil olun.

```
Parolu daxil edin

[********]
```

- 8-ə qədər hərfdən ibarət olan parolu daxil edin. ENTER klavişini basın.
- Parolu təsdiq etmək üçün yenidən yazın. ENTER klavişini basın.

✓ Öz parolunuzu həmişə yadda saxlayın. Əgər onu unutmusunuzsa, siz sistemi yenidən işə salmalısınız ki, bu da mütləq istifadəçi məlumatlarının pozulmasına gətirib çıxaracaq.

### *Parolu dəyişmək*

- *Parolu müəyyən edin* yarımbölməsinə daxil olun. Hal-hazırki parolu daxil edin. ENTER klavişini basın.
- Yeni parolu müəyyənləşdirin. ENTER klavişini basın.
- Parolu təsdiq etmək üçün yenidən yazın. Parolu yaddaşda saxlamaq üçün ENTER klavişini basın.

### *Parolu silmək*

- *Parolu müəyyən edin* yarımbölməsinə daxil olun. Hal-hazırki parolu daxil edin. ENTER klavişini basın.
- Növbəti iki sahəyə heç bir hərf daxil etməyin. Yalnız ENTER klavişini iki dəfə basın.

## *Məlumatların qorunma rejimi*

*Məlumatların qorunma rejimi* köməyi ilə siz öz şəxsi yazılarınızı qoruya və PK kommunikasiya funksiyasını blokirovka edə bilərsiniz.

- *Məlumatların qorunma rejimi* yarımbölməsinə daxil olun.

*YAND.* seçildikdə məlumatlara giriş blokirovka olunur və ⊶ indikatoru indikator sırasında görünür.

✓ Parolla qorunan bölməni cihazı söndürməmişdən əvvəl bağlamaq məsləhət görülür.

Təhlükəsizlik rejimi düzgün parol daxil etməklə aşağıdakı hallarda ləğv oluna bilər:

- Təhlükəsizlik rejimi yarımbölməsində OFF düyməsi seçildikdə.
- Hər hansı bir qorunan bölmə açıldıqda.

## Kontrast səviyyəsini təyin etmək

Verilmiş kontrast səviyyəsi *Kontrast səviyyəsini təyin etmək* yarımbölməsində dəyişdirilə bilər.

- Kontrast səviyyəsini ←, → istifadə etməklə dəyişdirin.

## Nitq seçimləri

Öz şəxsi tələffüzünüzü qurulmuş nitq sintezatorunun sürət və tezliyinə uyğunlaşdırın. *Nitq tezliyi* və *Nitq sürəti* paneli arasında hərəkət etmək üçün ENTER-dən, hər bir seçimin səviyyəsini nizamlamaq üçün isə ←, →-dən istifadə edin.

## Söndürülməyə qalan vaxt

Təyin edilmiş 3 dəqiqə müddətindən sonra qurğu avtomatik olaraq sönür.Bu xüsusiyyət müəyyən fəaliyyətsizlik dövründən sonra cihazı söndürməklə batareyaları qoruyur. Siz bu müddəti 1 dəqiqədən 5 dəqiqəyədək təyin edə bilərsiniz.